Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Ədəbiyyatımızın ədəbi əxlaq nümunəsi – Oqtay Rza

**Oqtay Rzanın 85 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2019**

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Ədəbiyyatımızın ədəbi əxlaq nümunəsi – Oqtay Rza:** Oqtay Rzanın 85 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.R.Məmmədli; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2019. – 28 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

## Tərtibçidən

Oqtay Rza gözəl əsərləri ilə sevilib-seçilən çağdaş poeziyamızda özünəməxsus yeri olan şairlərimizdəndir.

O, irili-xırdalı neçə-neçə şeir və nəsr kitabların müəllifidir. Doğma yurdumuzu oba-oba, oymaq-oymaq gəzmiş şairin şeir dünyası zəngin, mövzu dairəsi geniş və əlvandır. Şair nədən yazırsa-yazsın, onu mənalandırmağı bitkin, yaddaqalan bir şeir formasında ortalığa çıxarmağı bacarır. Onun şeirlərində zaman və məkan maddiliyində poetik hissə çevrilir, obrazlar, qəhrəmanlar tədricən görünür. Oqtay Rza şeirlərində sözlər elə sıralanır ki, sanki rəqs edir. Şair sözün laylarından çıxaraq, inciləri yarpaq-yarpaq düzərək canlandırır.

Bəli, Oqtay Rzanın şeirlərində məna zənginliyi vardır: bu da onun alimliyindən, xüsusilə təbii aləmin anatomiyası və geologiyasını bilməsindən irəli gəlir. Oqtay Rzanın ustalığı, bədii fikrinin yeniliyi və kamilliyi ondadır ki, heç kəsi təkrar etmir, həyatdan aldığı mövzuları özünəməxsus üsullarla və obrazlı ifadələrlə canlandırır, çıxardığı əxlaqı nəticə də yeni olur. Məhz ona görə də onlar orijinaldır. Oqtay Rza çoxsaylı kitabların, bu kitablarda toplanıb işıq üzü görmüş yüzlərlə poeziya nümunələrinin müəllifidir.

## Bölmə I. Həyat və yaradıcılığı

Oqtay Rza 1934-cü il noyabrın 2-də Salyan rayonunun Qalalı kəndində anadan olmuşdur. Arbatan kənd yeddillik məktəbini bitirib Salyan şəhərindəki Nizami adına orta məktəbdə təhsilini davam etdirmişdir (1948-1951). Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirib geoloq ixtisası almışdır (1951-1956). Əmək fəaliyyətinə Bayıldakı Neft və Qazçıxarma İdarəsinin 5 saylı mədənində başlamışdır: operator, başoperator, neftçıxarma ustası olmuşdur (1956-1961).

Elmi-tədqiqat işi müdafiə edib geologiya-minerologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. Oqtay Rza N.Tusi adına APİ-nin ümumi coğrafiya kafedrasında müəllim, baş müəllim (1966-1969), dosent (1971) işləmiş, deputat seçilmişdir (1959-1960).

Oqtay Rza ilk şeirlərindən birini "Azərbaycan pioneri", indiki "Savalan" qəzetində dərc etdirəndə Salyan rayonu Qalalı kənd məktəbinin 7-ci sinfində (1948-ci ildə) oxuyurdu. Şair o vaxtdan bəri bir gün də olsun qələmdən ayrılmayıb, coşqun ilhamla yazıb yaradıb. İndiyə qədər çoxlu kitabları çapdan çıxıb, şeirləri bir çox dillərə tərcümə olunub.

Oqtay Rza Azərbaycan Neft Akademiyasını fərqlənmə diplomu ilə bitirib. Təhsilini başa vurduqdan sonra bir müddət mühəndis kimi Bayıl mədənində çalışıb. Sonra dissertasiya müdafiə edib alimlik dərəcəsi alıb. O, 40 ildən artıqdır ki, ali məktəbdə dərs deyir, Azərbaycan Pedaqoji Universitetinin dosentidir. Dostları onu "müəllimlər müəllimi" adlandırırlar.

Oqtay Rza həm lirik, həm də uşaq şairidir. Şairin "Ürəyimi oxuyun" (1975), "Günəşin adından" (1991), "Hara gedirəmsə"

(1980), “Daş çırağın işığında” (1983), “Küçələr” (1980), “Körpü” (1980), “Doğmalıq” kitabları ürəklərə yol tapıb sevilə-sevilə oxunur.

Oqtay Rzanın poeziyasında təbiət xüsusi poetik mərhələ təşkil edir. O, geoloq, alim, müəllim olaraq bu günün prizmasından dünyanı gəzib dolaşmışdır. “Payız”, “Zövhə”, “Maralgöl”, “Qonaqkəndə gedən yolda”, “Xınalıq”, “Bulud”, “Lahıc lövhələri”, “Yasəmən ağacı çiçəkləyəndə” və onlarla şeirlərini misal gətirmək olar.

## Bölmə II. Yubiley tədbirlərinin keçirilməsi

Bu il parlaq bədii istedada malik söz sənətkarı Oqtay Rzanın 85 yaşı tamam olur. Yubiley münasibətilə respublikanın bütün mədəniyyət müəssisələrində, eyni zamanda kitabxanalarda yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Tədbiri keçirmək üçün kitabxana məktəblərlə, ali təhsil ocaqları ilə əməkdaşlıq etməlidir. İlk olaraq kitabxanada Oqtay Rzanın yubileyi ilə bağlı kitab sərgisinin keçirilməsi vacibdir. Kitab sərgisində Oqtay Rzanın kitabları ilə yanaşı, dövri mətbuatda çap olunmuş məqalələrin kartotekası da təşkil olunmalıdır. Sərgi müxtəlif başlıqlarla adlandırıla bilər. Məsələn, **“Körpəsiz vətən olmaz, Vətən körpələrindir”, “Körpələri qoruyaq”, “Oqtay Rza – 85”, “Ədəbiyyatımızın ədəbi əxlaq nümunəsi – Oqtay Rza”, “Şairin poetik aləmi”** və s.

1. Başlıq. Məsələn, “Oqtay Rza-85”;
2. O.Rzanın portreti;
3. Kitablarının sərgisi;
4. Dövri mətbuatda çap olunan məqalələr;
5. Görkəmli insanların O.Rza haqqında söylədikləri sitatlar.

“Adlı, ünvanlı misralar”, “Ürəyimi oxuyun”, “Günəşin adından”, “Daş çırağın işığında”, “Baldan şirin balalar”, “Uşaq təbəssümü”.















## Görkəmli şəxsiyyətlərin Oqtay Rza haqqında söylədikləri fikirlər

Oqtayın "İşıq sürətilə uçası olsam" adlı şeiri elmlə poeziyanın vəhdətinə ən səciyyəvi misaldır.

Şan-şöhrət qucmaram, dövlət qucmaram,
Qaçmaram meydandan, mübarizədən,
İşıq sürətiylə hələ uçmaram
Bir az lazımamsa bu dövrana mən.

**Ramiz Qurbanov,**
*professor*

Oqtay Rza böyük məhəbbət bəslədiyim gözəl insan, istedadlı şair, alim, dostumdur mənim.

**Ağarəhim Rəhimli,**
*yazıçı*

Oqtay Rzanın yaradıcılığında Azərbaycan torpağı, onun əsrarəngiz gözəllikləri, füsunkar təbiəti, xalqımızın Vətən sevgisi, istiqlaliyyət mübarizəsi tərənnüm olunur.

**Nahid Hacızadə,**
*ssenarist*

Oqtay Rzanın böyüklüyü ondadır ki, o Füzulini, Səməd Vurğunu özünə ustad, bələdçi bilir. Bəli, şairin poetik dünyası baxma bucağından asılı olmayaraq bütün parametrlərdə zəngin və rəngarəngdir.

**Əzizxan Tanrıverdi,**
*professor*

Tanınmış şairimiz Oqtay Rzanın şeirlərini onun pərəstişkarları olan biz böyüklərlə bərabər gənc nəsil balalarımız həvəslə oxuyur, incəqəlbli sənətkarı çox sevirlər.

**Akif Aslan,**
*Əməkdar mədəniyyət işçisi*

Oqtay Rza yaradıcılığı ilə uşaqları yaxından tanış etmək üçün kitabxanaçı **sərgi qarşısında söhbətlər** aparmalıdır. Kitabxanaçı: Oqtay Rza Azərbaycanda uşaq poeziyasında görkəmli yer tutan şairlərdəndir. O, yaradıcılığının böyük bir hissəsini uşaqlar üçün şeir yazmağa həsr edibdir. "Baldan şirin balalar", "Uşaq təbəssümü" adlı şeir kitabları ilə tanış olmusunuz. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 2009-cu ili bütün ölkədə "Uşaq ili" elan etmişdir. Möhtərəm prezidetimizin bu sərəncamı ölkəmizdə uşaqlara, gənc nəslə olan qayğı və diqqətin daha bir parlaq təcəssümüdür. İstedadlı şairimiz Oqtay Rzanın "Uşaq təbəssümü" adlı kitabı da bu "Uşaq ili" ndə gələcəyimiz olan fidan balalarımıza kiçik bir hədiyyəsidir.

Yubiley münasibətilə təşkil olunacaq tədbirlərdən biri də kiçik yaşlı oxucular üçün şeirlərin ucadan oxusudur. Şairin "Azərbaycan", "Balalar böyüdükcə", "Yarış", "Təbəssüm", "Qoruyaq", "Ağacdələn", "Dostluq", "Baldan şirin balalar", "Su" və s. şeirlərinin oxusunu məsləhət görürük. Çünki şeirlərin ucadan oxunuşu uşaqların diqqətini daha çox cəlb edir, onlarda şeirə qulaq asmaq, şeiri duymaq, başa düşmək qabiliyyətini formalaşdırır. Şeiri oxuduqdan sonra uşaqlara aşağıdakı sualları vermək olar.

1. Oqtay Rza kimdir?

Oqtay Rza uşaqların sevimli şairidir.

2. Hansı şeirləri xoşunuza gəldi?
"Uduzanda", "Su", "Ağacdələn"
3. "Ağacdələn" şeirində Ağacdələn nə üçün ağacı dəlir?
Ağacları həşəratlardan təmizləyir.
4. "Dostluq" şeirində şair nə demək istəyir?
İki ayrı-ayrı məxluqların bir-biri ilə mehriban olmalarını istəyir.

Oqtay Rzanın vətənpərvərlik mövzusunda yazdığı şeirlər dərsliklərə daxil edilib. Həmin şeirlər dillər əzbəridir. Yubiley ərəfəsində kitabxanada məktəblilər arasında **"Vətənpərvərlik bizim xilas yolumuzdur"** adlı **şeir müsabiqəsi**nin təşkili məqsədəuyğundur. Bu tədbirə uşaqlar bir həftə ərzində ciddi hazırlaşırlar. Şeirləri ən gözəl ifa edən oxucu münsiflər heyəti tərəfindən mükafatlandırılır və qalib olur. Şeirlərdən bir neçəsini sizə təqdim edirik:

**Azərbaycan**

Ay-ulduzlu bayrağın var,
Qədim, ulu torpağın var;
Özün boyda çırağın var,
Əsrlərdən sorağın var.

Əsirgəmir uğrunda can
Min-min igid, Azərbaycan!
Yaşa, eşqi çiçək açan
Azad, vahid Azərbaycan!

**Xocalı**

Tək qalıb vuruşdun darda, çətində.
İki müqəssir var müsibətində:
Daşnak canilərlə daxili qurdlar...
Mərmi yağdırdılar, pusqu qurdular.

Döndün yaralanmış mərdə, Xocalı!
Bu qan qalmayacaq yerdə, Xocalı!
Neçə gənc ananın, məsum körpənin
Sinəsi atəşə hədəf, tuş oldu;
Bakıya çatanda harayın sənin
Sandım ki, mənim də dərim soyuldu.
Alışdı səma da, yer də, Xocalı!
Bu qan qalmayacaq yerdə, Xocalı!
Birləşib qələbə çalmasaq əgər,
Sənin qisasını almasaq əgər,
Demək nə dövlətik, nə xalqıq onda;
Batarıq zamanın burulğanında...
Bir də söyləyirəm, bir də, Xocalı:
Bu qan qalmayacaq yerdə, Xocalı!

**Qəhrəman Çingiz**

Vətənin unudulmaz
Qəhrəman Çingizi var;
Yaşayır ürəklərdə
Onun keçdiyi yollar.

Yurdumuz çağıranda
Oğultək and içib o;
Qarabağa yollanıb,
Öz canından keçib o.

Telelentə köçürüb
Müsibətli anları
Dünya tanısın deyə
Günahsız  qurbanları.

Telelentə köçürüb
Əsrin fəlakətini
Min–min ürək ağrıdan
Xocalı dəhşətini.

Neçə-neçə Cavanşir,
Babək, Gəray, Həzi ... var;
Vətənin unudulmaz
Qəhrəman Çingizi var!

**Ata** **(Şeir həm də mahnı mətnidir. Bəstəkarı Tariyel Məmmədlinindir.)**
Cəbhədən gəlir
Səsin, sorağın;
Heç vaxt sönməsin
Ümid çırağın.
Sevinirəm ki,
Keşiyindəsən
Ana torpağın.
İnan ki, vallah
Az qalıb silah
Götürüb, mən də
Vuruşum döyüş
Bölgələrində.
Vuruşum qəddar,
Azğın, amansız
Düşmənlər ilə;
Nənəm söyləyir:
"Uşaqsan hələ".
Nigaranıq bərk.
Ata, gözümüz

Hər gün yoldadır;
Hərdən sağsağan
Bizi aldadır...
Hər saat, hər an
Sayıq ol, ata!
Qələbə qazan,
Qəhrəmanlığa
Layiq ol, ata!

**Əsgərəm**

Adımın mənasını
Öyrədib nənəm mənə;
Ömür boyu borcluyam
Ana yurda, Vətənə.
Xalam hərdən deyir ki,
Sən balaca qoçaqsan;
Böyüyəndə tanınmış
General olacaqsan.
Babamdan eşitmişəm:
İgidlər alqışlanır;
Generallığın yolu
Əsgərlikdən başlanır.

**Milli ordu, qüdrətli ol həmişə**

Qalaların Əlibəyli, Sədərək,
Yağdır düşmən üzərinə od, alov!
Məlunları darmadağın edərək,
İlanları yuvasına qədər qov!
Doğma yurddan güc - qüvvət al həmişə,
Milli Ordu, qüdrətli ol həmişə!

Dildən düşmür cəsurların tərifi,
Salnaməndə min imza var, min iz var;
Unutmarıq Mübarizi, Əlifi,
Yaddan çıxmaz Gültəkinlər, Vüqarlar.
Nurlanacaq getdiyin yol həmişə,
Milli Ordu, qüdrətli ol həmişə!

Cəngavərlər bayraqdardır sıranda,
Xalqın, elin qorxu bilməz oğlusan;
Sevinirəm tarixinə varanda -
Babək, Nəbi, Həzi, Fərid ruhlusan.
Qələbə çal, qələbə çal həmişə,
Milli Ordu, qüdrətli ol həmişə!

**Vətən naminə**

Sinəmdə - sönməyən Vətən sevgisi,
Azğın düşmənlərə qarşı kinliyəm.
Dözüm - babaların müqəddəs irsi,
Mən şəhid Mübariz İbrahimliyəm.

Çadıra bürünüb ünvanlarımız,
Niyə Xanbağının gülü solubdur?
Çöl-çəmən aşiqi çobanlarımız
Uca yaylaqlara həsrət qalıbdır?!

Əlində namərdin verdiyi yaraq,
Meşəmi məhv edir, suyumu içir.
Gözəl Qarabağda pusqu quraraq,
Hələ utanmadan təlim də keçir.

Hərbi iş  - könüllü seçdiyim peşə,
Ocaq qalanırdı içimdə sanki...

Cəbhə xəttimizdən uzaqlaşdım ki,
Qatil yuvasını tutum atəşə.

Döyüşən oğluyam doğma diyarın,
Yağı həmləsinə sinə gərmişəm.
Şəhriyar düzünün, Biləsuvarın
Şöhrət sarayına tac göndərmişəm.

Yazdığım namədə - ürək sözlərim,
Vətən məhəbbəti, torpaq eşqi var.
Nə atam, nə anam, nə əzizlərim
Göz yaşı axıdıb ağlamasınlar.

...Sinəmdə - sönməyən Vətən sevgisi,
Azğın düşmənlərə qarşı kinliyəm.
Dözüm - babaların müqəddəs irsi,
Mən şəhid Mübariz İbrahimliyəm.

**Oğul əsgər gedir...**

Cavan çağırışçı - polad əridən
Döyüşçü paltarı geyinir bu gün;
Karvan yollanacaq Biləcəridən,
Ürək həyəcanla döyünür bu gün.

Oğul əsgər gedir... Bir az kövrəlib,
Müdrik anasının yaşarıb gözü.
Onu ötürməyə dost-tanış gəlib,
Birinin gülü var, birinin sözü.

Oğul əsgər gedir... Əhdi, peymanı
Bahar çiçəyitək təravətlidir;
Qabaran sinəsi, kükrəyən qanı
Domna sobasından hərarətlidir.

Atası xaniman, yuva uçuran
Cəbhə tutanları görüb nə qədər;
Bilir fəlakətdir yetimlik, hicran,
Torpaqsız yaşamaq ölümdən betər.

Öndə imtahanın, dərsin çətini,
O, keşik çəkəcək gözəl çağ üçün;
Oğul əsgər gedir - yurdu, vətəni
Yağı tapdağından qorumaq üçün!

**Bölünməz**

Çeşmə çaya qovuşur,
Çay dəryaya qovuşur.
Şeh dumanın zərrəsi,
An zamanın zərrəsi.

Dəqiqələr ömrünü
Başa vurur saatda;
İzi qalır illərin
Təbiətdə, həyatda.

Hüdudsuz kainatda
Hanı əvvəl,
Hanı son?
Sirli aləm deyilmi
Atom, nüvə, neytron?

Bir Günəşdən nur alar
Yarpaq, budaq, gövdə, kök.
Ağ işığın qolları-
Sarı, yaşıl, mavi, göy...

Cisim var ki, parçası
Adi gözlə görünməz;
Çörək bölünər, ancaq
Ana Vətən bölünməz!

Oqtay Rzanın uşaq şeirləri əsasında **səhərcik** də hazırlamaq olar.

**Utandırdı**

Aparıcı: Mübahisə edirdi
Çiçək dərən dörd uşaq:
Ağacları, gülləri
Görək kim sulayacaq?
Anar: Yorğunam,
Çinar: Yorğunam
Sevər: Xəstəyəm,
Nüvər: Xəstəyəm.
Aparıcı: Birdən hava qaraldı,
Göylər səs-səsə verdi;
Qalaq-qalaq buludlar
Leysan yağış gətirdi.
Yaxşı-yaxşı yuyundu
Küçə, səki, bağ, həyət;
Tənbəlləri yamanca
Utandırdı təbiət!

O.Rzanı oxuculara yaxından tanıtmaq və sevdirmək üçün yuxarı yaş qrup oxucular arasında **oxucu konfransları** da keçirmək olar. Oxucu konfransının maraqlı keçirilməsi üçün kitabxanaçı məruzə və çıxışlara ziyalıları cəlb etməlidir.

Konfransda şairin həyat və yaradıcılığı haqqında kitabxanaçı məruzə edə bilər. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı Oqtay Rzanın yaradıcılığına yaxından bələd olan ədəbiyyatşünasların, yazıçı və şairlərin çıxışları dinlənilir.

Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə: **"Şairin poetik aləmi";**

2. Oktay Rza yaradıcılığında uşaqlar, Vətən, təbiət mövzusu – haqqında kitabxana rəhbərliyinin, ədəbiyyatşünasların, jurnalist, yazıçı və şairlərin çıxışları;

3. Məktəblilərin Oqtay Rzanın şeirləri əsasında təqdim etdiyi səhnəciklər;

4. Konfransın yekunu.

**I İştirakçı:** Oqtay Rzanın uşaqlar üçün yazdığı şeirləri məzmun və mündəricə cəhətdən zəngindir. Uşaqların həyatı, təhsili və tərbiyəsi, vətənə məhəbbəti, təbiətə, heyvanlar aləminə münasibəti bu şeirlərin mövzusu olmuşdur. Oqtay Rzanın ilk şeirlər kitabı "Torpağı dinləyirəm"də toplanmış poetik nümunələr öz oxucularına ümidverici təsir bağışlayır. Kitabda əsas mövzular əmək, sülh, təbiət və vətənin tərənnümüdür.

**II İştirakçı:** Onun Qarabağ savaşı haqqında onlarla dəyərli şeirlərini oxumuşuq. Ağır itkilərin ağrısını birbaşa duyan şairin "Hərbi xəstəxana" şeiri buna sübutdur.

Hərbi xəstəxana, sözüm var sənə!
Sığınıb yaralı cəsurlar sənə -
Bir an əsirgəmə səxavətini,

Qaytar əsgərlərin güc-qüvvətini.
Kiməsə əl, ayaq,
Kiməsə qol ver,
Şirin arzulara işıqlı yol ver!

**III İştirakçı:** Oqtay Rza insanları xoşbəxtliyə səsləyir. Şairin poeziyasında təbiət xüsusi poetik mərhələ təşkil edir. O, pedaqoq alim, müəllim olaraq bu günün prizmasından dünyanı gəzib-dolaşmışdır. Oqtay Rzanın şair fəhmi daha güclüdür: təbiətin doğduğu möcüzələr, sərvətlər, şəhərlər, ölkələr və s. mövzuya çevrilir. “Payız”, “Lövhə”, “Maral göl”, “Xınalıq”, “Bulud”, “Yasəmən ağacı çiçəkləyəndə” və s. onlarla şeirlərində təsvirdə emosionallıq, fikrin şərhi, lirizmi açıq aydın görürük. Məsələn, “Bulud” şeirindən bir parçaya baxaq:

Harasa yollanıb qərib durnatək,
Bu axşam nə yaman kövrəksən, bulud?
De, hansı aşiqin vəfalı, göyçək
Yarından yadigar örpəksən, bulud?

Təbiət şeirlərində fikir-məna zənginliyi vardır. Bu da Oqtay Rzanın alimliyindən, xüsusilə, təbii aləmin anatomiyası və geologiyasını bilməsindən irəli gəlir.

**IV İştirakçı:** Oqtay Rza son on ildən artıqdır “rübailər karvanı”nın müəllifi kimi tanınmaqdadır. Qədim Şərq şeirinin miniatür forması onun yaradıcılığında müasir ovqatda səslənir:

Ayıldım. Elə bil canım köz imiş,
Röyada yanmağım tüstüsüz imiş.
Eyni otaqdayıq, yataqdayıq biz,
Yuxunu tərsinə yozmaq düz imiş!

**V İştirakçı:** Oqtay Rza uşaqlar üçün uzun illərdir bir-birindən gözəl şeirlər yazır. O, uşaq şeirlərini "Baldan şirin" və "Bala baldan şirindir" adı ilə çap etdirmişdir. Onun uşaq obrazları ağıllı, hazırcavab, diribaş, şəkil çəkməyi xoşlayan balalardır.

Gördüm Günəş yaşıldır,
Ulduzlar bənövşəyi.
Bağda üzüm qızarıb,
Dağda qar bənövşəyi.

**VI İştirakçı:** Oqtay Rza mövzu seçərkən uşaq həyatına müraciət edir. "Aynura məktub"da nənə nəvəsi üçün bərk darıxır, bütün oyuncaqlar da sükuta dalıbdır. Aynurun anası hisslərini gizlətmir:

Nənəngilə səfərin
Nə çox çəkdi, ay bala!
Günüm dönüb həftəyə,
Həftəm olub, ay bala!
Sənsiz dolu otaqlar
Mənə bomboş görünür.
Ayı yaman fikirli,
Dələ - naxoş görünür.

**VII İştirakçı:** Oqtay Rzanın şeirləri hələ uzun illərə, qərinələrə gedib çıxacaqdır, çünki bu poetik nümunələrdə onun şair ruhu, inadı yaşayır.

Qələmdən kağıza süzülən inci
Düzülüb sıraya - dönür əsərə.
Münəccim yaşıdım yaxşı deyir ki,
Qələm yol gedəcək mininci əsrə…

Oqtay Rza poeziyasının təbliğində kitabxanalarda yubilyardan bəhs edən **ədəbi-bədii gecənin** təşkili oxucular tərəfindən ən çox sevilən tədbirlərdəndir. Bu tədbirə həm kitabxanaçılar, həm də oxucular həvəslə hazırlaşırlar. Ədəbi-bədii gecənin keçirilməsində əsas məqsəd oxuculara şairin həyat və yaradıcılığı haqqında məlumat verməklə bərabər həm də onun şeirlərini təbliğ etməkdir. Ədəbi-bədii gecə müxtəlif başlıqlar altında keçirilə bilər. "Oqtay Rza lirikası", "Uşaqların sevimli şairi" və s. Tədbir iki hissədən ibarət olmalıdır. Birinci hissədə şairin həyat və yaradıcılığı haqqında çıxışlar olmalı, ikinci hissədə isə şairin şeirlərinə bəstələnmiş musiqilər səslənməlidir. Kitabxanalara kömək məqsədilə **"Körpəsiz vətən olmaz, Vətən körpələrindir"** "adlı ədəbi-bədii gecənin ssenarisini veririk. Səhnə şairin şəkli və gül dəstələri ilə bəzədilir. Aparıcılar səhnəyə daxil olurlar.

**I Aparıcı:** Gözü dolar buludun,
Odu da var buludun.
Keçmiş nəhəng palıdın,
Sabah pöhrələrindir.

Bu gözəl misralar, həm böyüklərin, həm də uşaqların sevimli şairi Oqtay Rzaya məxsusdur. O.Rza sözün əsl mənasında lirik şairdir. Poeziya onun ruhudur. Uşaqlar onun qanadıdır.

*(Səhnəyə oxucu daxil olur. O.Rzanın şeirlərindən bir parça söyləyir).*

**Oxucu:** Əsrin başı üzərində
Gəzir yenə bəla, şər...
Kaş dünyadan həmişəlik
Silinə, yox ola şər!

Ümidimiz, pənahımız –
Körpələrdir, körpələr!
Ümidimiz, Pənahımız –
Körpələri qoruyaq;
Ən işıqlı sabahımız –
Körpələri qoruyaq!

**II Aparıcı:** Oqtay Rzanın yaradıcılığında torpağa dair söz demək məsuliyyəti çox güclüdür. Bu məsuliyyət, bəlkə də, şairin bütün varlığına hopmuş səmimiyyətindən, ya da ömür yoluna dönmüş geoloqluğundan irəli gəlir. Şair torpağa yaxındır, doğmadır. O dərəcədə yaxın, doğmadır ki, "Bu torpağın balasıyam" deməklə, iftixarlanır, qürur hissi keçirir.

**I Aparıcı:** Gözəllik diyarı, hünər məskəni,
Necə vurulmasın hüsnünə insan?
Təbiət füsunkar yaradıb səni;
Tarixin qocadır, özün cavansan.

Şair Oqtay Rzanın "Azərbaycan" şeirindən götürülmüş bu misralar torpağımızın hüsnü barədə aydın təsəvvür yaradır.

**II Aparıcı:** Ana vətən, adın sözün
Özün qədər doğma, əziz!
Əzəmətin zirvə-zirvə,
Məhəbbətin dəniz-dəniz.

Bu şeirlərdə şairin doğma vətənə olan məhəbbəti, qüruru hiss olunur. Şair təbiətə, ana torpağa, doğma vətənə bütün varlığıyla bağlıdır. Bu fikri aşağıdakı misralar bir daha təsdiq edir:

Vətəni ürəkdən tərənnüm etmək
Borcudur gəncin də, ağsaqqalın da.

**I Aparıcı:** Hər bir ədəbi yaradıcılığın zənginliyi əsasən onun rəngarəngliyi ilə ölçülür. Vətən torpağının əvəzolunmazlığı, sülh, əmin-amanlıq, dostluq, ananın müqəddəsliyi onun şeirlərinin leytmotivini təşkil edir. Səyahət etdiyi bütün hər yerin gözəlliyi, ecazkarlığı qarşısında heyranlıqla dayanır, şirin-şəkər balalarımıza şeir yazır. Geoloq-alim kimi respublikamızın hər tərəfini addım-addım gəzən şair barlı-bərəkətli düzlərimizin genişliyinə, şırıl-şırıl axan çaylarımıza, cana dərman olan loğman bulaqlarımıza, qoşa hörük kimi ulu yurdumuzun sinəsindən sallanıb gedən Kürə, Araza nəğmə deməkdən yorulmur. Onun şeirlərinin təməli, mayası doğma təbiətdir.

**II Aparıcı:** Oqtay Rza uşaq aləminə bələd şairdir, uşaqları düşündürən məsələləri şeirə gətirir. Belə şeirlər uşaqların fantaziyasını oyadır. Məsələn, "Ulduz" şeirində:

Dəniz çaydan böyükdür
Günəş Aydan böyükdür.
Ulduz var- daha nəhəng!
Eşitmişəm bunu mən
Ulduz adlı bibimdən.

**I Aparıcı:** Oqtay Rzanın uşaqlarda yumor hissini oyadan şeirləri də vardır:

Pis adamın gülməli
Şəklini də çəkərlər.
Bir şey məni çağırır:
Başda da turp əkərlər?

**II Aparıcı:** Şairin uşaqlar üçün yazdığı şeirlərdə humanizm, səmimilik, ədalətlilik kimi hisslər təsvirini tapmışdır. Çünki şair daim uşaqlarla ünsiyyətdədir, belə olmasa idi uşaqlar üçün gözəl şeirlər yaza bilməzdi. İndi isə gəlin şairin "Duz-çörək" hekayəsinə tamaşa edək və qulaq asaq!

*(İki oxucu- biri duzun digəri çörəyin sözlərini söyləyirlər.)*

**Duz:** Çörək bacı! Bir-birimizə məhəbbətimiz dillər əzbəridir. Hər eldə, obada "duz-çörək" sözlərini çox işlədirlər. Adımın əvvəl çəkilməsindən incimirsən ki?

**Çörək:** Əsla yox!

**Duz:** Qoy onda kimliyimi ətraflı aydınlaşdırım. Duz babamın duz kötükcəsiyəm. Niyə beləyəm? Axı Naxçıvandakı Nehrəm yatağından çıxarılmışam. Nehrəm yatağının 15 milyon yaşı var.

**Çörək:** Bəs bu qədər yaşla özünü kötükcə hesab edirsən?

**Duz:** Bəs necə? Görürəm maraqlanırsan. Danışım, tanış ol tariximizlə. Bütün sərvətləri özündə yerləşdirən qatlarda hər hadisənin, hər əsrin, dövrün izləri yaşayır. Ən qədim ehtiyatlarımız Sibirdə, Hindistanda, Amerikada tapılıb, Nehrəmin və Duzdağın yaşı neogenlə bağlıdır. On milyon yaşı olan yatağı geoloqlar "cavan" sayırlar. Dünya duzu ilə tutuşdurulanda görürsən nə qədər gəncik?

**Çörək:** Minnətdaram! Mən də öz nəslimin tərcümeyi-halını söyləmək istəyirəm. Sarıca düzündə biçilmiş taxılı dəyirmanda üyüdüblər. Həmin məhsulun barıyam. Sarıca düzündə yetişdirilmiş buğdanın çörəyiyəm. Bir nömrəli zavodda bişirilmişəm. Nə indi də bəlkə buğdanın həyatından azacıq məlumat verim?

**Duz:** Buyur, buyur!

**Çörək:** Buğda dənli bitkilər sinfinə daxildir. O, yosun, mamır, qıjı, iynəyarpaqlı bunların hamısından sonra yaranıb buğda. Ən

qədim yaşı 40-45 milyon ildir. Duz qardaş! Doğrudan da sənin köklərin daha qədimmiş. Yəqin elə buna görə də adın birinci çəkilir.

**Duz:** Çörək bacı! Bunu belə başa düşməsinlər ki, sən məndən az əhəmiyyətlisən. Sən bərəkətsən, mahnı da, qələbə də adınla bağlıdır. Adlarımız arasındakı məşhur işarənin də mənası budur ki, bərabər hüquqluyuq, həyata, insanlara gərəyik.

*Aparıcı səhnəyə daxil olur:*

**I Aparıcı:** Dostlar, Azərbaycan torpağının duzu da, çörəyi də tükənməzdir. Süfrələr bəzəyən nemətlərimiz qoy həmişə dostluğa, ünsiyyətə qüdrət, qüvvət versin!

**II Aparıcı:** Ömrünün kamillik çağını yaşayan şairin ürəyi hələ cavan, təbi qaynardır. Tanınmış şairimiz Oqtay Rzanın şeirlərini onun pərəştişkarları olan biz böyüklərlə bərabər gənc nəsil, balalarımız da həvəslə oxuyurlar. Onun yaradıcılığında uşaq mövzusu həmişə öndədir, yaradıcılıq yolunun bir qayəsidir.

## Ədəbiyyat siyahısı

### *Əsərləri*


### *Kitablar*

Adlı, ünvanlı misralar. - Bakı : Yazıçı, 2013. – 3 hissə. - 316 s.

Baldan şirin balalar : Poeziya. - Bakı : Turan Nəşrlər Evi, 2008. - 24 s.

Seçilmiş sətirlərim : poeziya. - Bakı : Azərnəşr, 2001. - 264 s.

Uşaq təbəssümü : şeirlər. - Bakı : Turan Nəşrlər Evi, 2009. - 24 s.

### *Kitablarda*

Balalar böyüdükcə ; Təəccüb ; Su : [və b. şeirlər] // Azərbaycan uşaq ədəbiyyatı antologiyası : şeirlər, nağıllar, hekayələr, pyeslər, ədəbi tənqid. - Bakı : Elm və Təhsil, 2014. - S. 49-58.

Xocalı ; Cəmaləddin ; İlqar ; Səs : şeir // Azərbaycan harayı. - Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 197-200.

### *Dövri mətbuatda*

Adaşındır başıqarlı Savalan! : şeir // Savalan. - 2017. - 17-23 oktyabr. - № 37. - S. 3.

Adlar, şəxsiyyətlər - rübailərdə // Ədəbiyyat qəzeti. - 2017. - 2 dekabr. - № 44/45. - S. 26.

Ağacavad Əlizadə: mühüm anlar, unudulmaz məqamlar... // 525-ci qəzet. - 2018. - 31 mart. - № 56. - S. 17.

Bahar : şeir // Respublika. - 2018. - 20 mart. - № 61. - S. 5.

Bir uca zirvədədir : şeir // Ədəbiyyat qəzeti. - 2016. - 29 oktyabr. - № 40. - S. 19.

Bütövlük müəllifi ilə ünsiyyətdən epizodlar : Əliağa Kürçaylı - 90 // 525-ci qəzet. - 2018. - 17 fevral. - № 32. - S. 16, 24.

Cümhuriyyət nəğməsi : şeir : Azərbaycan Xalq Cümhuriyyəti - 100 // Ədəbiyyat qəzeti. - 2018. - 26 may. - № 20. - S. 21.

Cüt qüvvə ; Dünya sakitləşir... ; Dəniz ömrü və b. şeirlər // Kaspi. - 2015. - 25 aprel. - № 73. - S. 19.

Çətin məqamlarda özünü sına ; Azərbaycan öyrədir ; Gec deyil : şeirlər // Ədəbiyyat qəzeti. - 2018. - 21 iyul. - № 28. - S. 21.

Əbədiyyət ; Bu şəhərdə bapbalaca qızlar azalıb ; Qələm ; "Rübai karvanı, dördlük çələngi" silsiləsindən nümunələr : şeirlər // Ədəbiyyat qəzeti. - 2016. - 27 avqust. - № 31. - S. 26.

Fəsil dəyişəndə : şeir // Respublika. - 2014. - 26 noyabr. - № 258. - S. 7.

Kövrək duyğuların tərənnümçüsü : [şair Sabir Abidinin yeni "Adını sən seç" şeirlər kitabının təhlili] // Kaspi. - 2016. - 10-14 sentyabr. - № 143. - S. 22.

Kürçaylı küçəsi ; Ülkər : şeirlər : Əliağa Kürçaylı - 90 // Ədəbiyyat qəzeti. - 2018. - 17 fevral. - № 6. - S. 25.

Qələm : şeir // Ədəbiyyat qəzeti. - 2017. - 22 iyul. - **№ 26**. - S. 25.

Qızıl yubileyin öndədir hələ : Nahid Hacızadəyə həsr olunmuş şeir // Yada düşdü. - 2018. - № 1. - S. 63.

Milli Ordu, qüdrətli ol həmişə : şeir // Ədəbiyyat qəzeti. - 2018. - 23 iyun. - № 24. - S. 28.

Mübarək! : şeir // Respublika. - 2018. - 16 avqust. - № 181. - S. 2.

Müvazinət ; Cavab ; İzotoplar ; Təkamül : şeirlər // Ədəbiyyat qəzeti. - 2015. - 1 avqust. - № 46. - S. 22.

Söyüd yarpağının çaldığı layla : [şair Ağacavad Əlizadənin yaradıcılığı haqqında] // Ədəbiyyat qəzeti. - 2018. - 17 mart. - № 10. - S. 23.

Şeir ; Muğamın ; Əkslik : şeirlər // Kaspi. - 2019. - 19-21 yanvar. - № 12. - S. 22-23.

Tək işıq : şeir // Ədəbiyyat qəzeti. - 2014. - 19 dekabr. - № 49. - S. 13.

Vətən naminə : şeir // Savalan. - 2015. - 20-22 oktyabr. - № 70. - S. 3.

Vətən, uğurların mübarək! : şeir // Respublika. - 2016. - 2 noyabr. - № 242. - S. 8.

***Haqqında***

**Hacızadə N.** Ürək boyda odum qalsa... : şair Oqtay Rza // Yada düşdü. - Bakı : Araz, 2008. - S. 511-520.

**Hüseynoğlu S.** Sənətkar xoşbəxtliyi : Oqtay Rza - 80 // Respublika. - 2014. - 26 noyabr. - № 258. - S. 7.

**Oqtay Rza -** 80 // Ədəbiyyat qəzeti. - 2014. - 19 dekabr. - № 49. - S. 13.

**Yusifli V.** Səksəninci payızın mübarək, Oqtay Rza! : şair Oqtay Rzanın həyat və yaradıcılığı haqqında sifli // Kaspi. - 2014. - 1 noyabr. - № 181. - S. 21.

# Ədəbiyyatımızın ədəbi əxlaq nümunəsi – Oqtay Rza

**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 30
Çapa imzalanmışdır: 07.06.2019
Tirajı:100
Pulsuz